# STATUSLAR TƏFƏKKÜR GÜZGÜSÜNDƏ

* * *

İslama dair qədim tarix kitablarında bir sıra maraqlı hadisələr vardır ki, onlar barədə indi heç nə danışılmır. Belə məlumatların birində deyilir ki, Məhəmməd peyğəmbərin zamanında Ərəbistanda Hatəmi-Tai adlı çox səxavətli bir adam var imiş. O yoxsullara, ehtiyacı olanlara əlindən gələn köməyi edirmiş. Bir gün Məhəmməd peyğəmbər öz silahdaşları ilə Məkkədə küçənin kənarında oturduğu zaman Hatəm də oradan keçirmiş. Peyğəmbər ayağa qalxıb, onunla görüşüb söhbət edir. O gedəndən sonra isə yoldaşları peyğəmbərdən soruşurlar ki, "bəs sən bizə deyirsən ki, kafirlərə salam verməyin, ancaq özün durub bununla görüşüb söhbət etdin?" Məhəmməd isə onlara deyir ki, "axı bu adi adam deyil, Hatəmi-Taidir".

Nə qədər ki, Hatəm sağ olur, Məhəmməd onun tayfasının üzərinə islamı qəbul elətdirmək üçün qoşun göndərmir. Ancaq Hatəm öləndən sonra peyğəmbər Tay tayfası üstünə də hz. Əlinin başçılığı ilə silahlı dəstə göndərir. Döyüş zamanı Hatəmin bir oğlu öldürülür, digəri isə səhraya qaçır. Əsir götürülərək, satış üçün Mədinəyə aparılan arvad-uşaq arasında da Hatəmin yaşlı bir qızı var imiş. O qoca olduğuna görə onu alan olmur və orada o, müsəlmanlara paltar yuyurmuş. Bir gün fürsət düşəndə o, Məhəmmədin qabağını kəsir və əprimiş əllərini ona göstərərək deyir ki, "mən bu əllərimlə ömrüm boyu yetimə, yoxsula yemək paylamışam, indi isə siz mənə paltar yuduzdurursunuz. Olmazmı sən məni buraxasan ki, heç olmazsa qoca, xəstə vaxtımda mən gedib qardaşımın yanında öləm?" Məhəmməd onun sözlərinə əhəmiyyət vermir. Ancaq bu xəbər müsəlmanlar arasında yayılır və ciddi narazılığa səbəb olur. Bundan sonra Məhəmməd də bu qadına bir dəvə və lazımi azuqə verərək, qardaşının yanına yollayır. Hatəmi-Tainin adı isə bütün müsəlman poeziyasında səxavət rəmzinə çevrilir.

* * *

Rza şah İranda şəriət məhkəmələrini müasir tipli məhkəmə sistemi ilə əvəz edəndə tanınmış alim Əhməd Kəsrəvini (1890-1946) də bu işə cəlb etmişdi. Kəsrəvi yazır ki, mən Tehranda məhkəmə binasına gələndə gördüm ki, binadan bir qədər aralıda bir qrup adam oturubdur. Məni görəndə onlardan bəziləri ayağa qalxıb soruşdular ki, "sənə şahid lazımdır?" Kəsrəvi də öz növbəsində onlardan soruşur ki, "siz kimə şahidlik edirsiniz?" Cavab verirlər ki, "kim bizi şahid tutsa, ona". Məlum olur ki, şahid durmağı özlərinə peşə etmiş bu adamlar heç vaxt görmədikləri hadisələr barəsində də pul verən adamın xeyrinə şahidlik edirmişlər. Kəsrəvi yazır ki, bəzi hadisələr üçün şəriət qaydalarına əsasən 4 şahid tələb olunurdu. Belə hallarda şahidlərin sayı çatmayanda eyni bir şahid birinci şəhadətindən sonra binadan çıxıb bir dövrə vurub, sonra gəlib ikinci dəfə də şəhadət verə bilərdi.

Kəsrəvi şəriət qaziləri ilə də tez-tez mübahisələr edirmiş. Bir dəfə peyğəmbərin möcüzələrindən danışan bir ruhani iddia edirmiş ki, peyğəmbər Meraca (Kosmosa) gedən zaman mindiyi qatırla söhbət edirmiş. Kəsrəvi ondan soruşur ki, peyğəmbər qatırla hansı dildə danışırmış?

O, cavab verir ki, ərəb dilində. Kəsrəvi də ona deyir ki, "ay möhtərəm kişi, möcüzəni ki, peyğəmbər yox, qatır göstəribdir. Ərəbin ərəb dilində danışmasının nəyi möcüzədir?"

### FİRDOVSİNİN TSSXSSLLÜSÜ NECSS YARANIB?

Bir çox orta əsr ziyalıları kimi, Firdovsi də formal olaraq İslamı qəbul etsə də, qəlbində gizli şəkildə öz əvvəlki dinini yaşadırdı. "Şahnamə"dən də bu aydın görünür. Eləcə də bunu ruhanilər də bilirdilər. Buna görə də o, öləndə müfti onun müsəlman qəbristanlığında dəfn edilməsinə icazə vermir və şairi öz malikanəsində dəfn edirlər. Səhəri gün müfti gəlib şairin yaxınlarından soruşur ki, olarmı mən Əbülqasimin məzarını ziyarət edim? Ona deyirlər ki, sən dünən onun cənazəsinin qəbristanda dəfn edilməsinə icazə vermədin, indi nə olub ki, məzarını ziyarət etmək istəyirsən? Müfti deyir ki, mən gecə yuxuda gördüm ki, behiştin qapısının kənarındayam. Baxıb gördüm ki, behiştin içərisində hər tərəfə nur saçan bir işıq var və onun ortasında da bir adam oturub. Keşikçilərdən soruşdum ki, olarmı mən bu adama yaxından baxım? Onlar mənə icazə verdilər. Yaxınlaşanda gördüm ki, bu Əbülqasimdir. Soruşdum ki, bəs axı sən İslama inanmırdın, necə olub ki, gəlib buraya çıxmısan? O mənə dedi ki, məni "Şahnamə"nin birinci beytinə görə behiştə göndərdilər. Həmin beytin məzmunu isə belədir: "Can və ağıl sahibinin adı ilə  Çünki dünyada bundan üstün fikir ola bilməz".

Ancaq nə müfti, nə də o dünyada haqq-hesab çəkən mələklər başa düşməyiblər ki, ərəb Allahının əsas epitetləri "rəhman və rəhim" olduğu kimi, Ahura Məzdanın da əsas epitetləri elə "can və ağıldır". Hər halda, bundan sonra şairi "Firdovsi", yəni "Behiştlik" adlandırmağa başlayırlar.

### NOVRUZDA "HƏFT SİN" ANLAYIŞI

Çoxları belə düşünür ki, "Həft sin" (7 "se" ) süfrəsi yalnız fars Novruzuna aiddir və bu ənənə bizdə yoxdur. Əslində isə bu belə deyil, farslarda formal səciyyə almış bu ənənə bizim Novruz süfrəsində mahiyyətcə daha düzgün saxlanılıb. Mənşəyini saklardan götürən zərdüştilik təliminə əsasən dünya Ahura Məzda tərəfindən yeddi ünsürdən - səma, su, yer (torpaq), bitki, heyvan, insan və od ünsürlərindən ibarət yaradılıb və bu ünsürlərdən hər biri də bir qoruyucu mələyin mühafizəsi altındadır. Axır çərşənbə günü bu mələklər şər qüvvələrlə (soyuq, aclıq, qaranlıq və s.) mübarizə məqsədilə yerə enirlər. Sak dilində bu mələklərə "Ameşa spentə" (Ölməz mələklər) deyilir. Ərəb işğalından sonra zərdüştilik dini ilə birlikdə onun mələkləri və bayramları da qadağan olunmuşdu. Xəlifə Müaviyyə ona "hədiyyə" adı altında verilən böyük bac müqabilində Ahura Məzda (sonralar bu ad "Hörmüzd" forması almışdı) bayramının keçirilməsinə icazə verdi, ancaq bu şərtlə ki,bayram dini yox, yalnız təqvim bayramı kimi və Novruz (Yeni gün) adı altında keçirilməlidir.

Ahura Məzda bayramının ənənələrindən biri də bu idi ki, axır çərşənbə axşamı 7 spentənin (mələyin) şərəfinə açılan süfrədə bu mələkləri və onların qoruduqları ünsürləri simvolizə edən 7 məmulat olmalı idi. Farslar "7 spentə" sözünü müsəlman ruhanilərinin nəzərindən yayındırmaq üçün bu adətə "həft (7) sin" adı verdilər. Müsəlmanlaşan əhali arasında bu ənənənin həqiqi mənası unudulduqdan sonra isə sonrakı fars nəsilləri bu ifadəni "sin hərfi ilə başlanan 7 nemət" mənasında anlayaraq, süfrəyə səbzə (bizim səməniyə deyilir), səmənu (cöcərmiş buğda dənindən hazırlanan xörək), senced (iydə), sir (sarımsaq), sib (alma), sumaq və sirkə qoymağa başladılar, halbuki bu məmulatların çoxu 7 ünsürdən yalnız birinə - bitkiyə aiddir və onlardan bəziləri heç bayram süfrəsi üçün münasib də sayıla bilməz. Həm də başqa dillərdə onların adları başqa hərflərlə başlanır. Bizdə isə İslam qadağasından sonra Axır çərşənbə bayramında sadəcə "7 spentə süfrəsi" adından imtina edilmiş, süfrəyə isə bayramın ənənələrinə tam uyğun olan məmulatlar qoyulmuşdur: səmanın (göy qübbəsinin) şərəfinə boyanmış yumurta, suyu simvolizə edən şərab (islamdan sonra - şərbət), yeri simvolizə edən dairəvi külçələr, bitkini bildirən səməni, heyvan ünsürünü bildirən ət-süd məhsulları, insanları təmsil edən iştirakçılar, odun təcəssümü kimi isə şam və ya çıraq. Bu deyilənlər elə indi də bizim Novruz süfrəmizin ayrılmaz atributlarıdır.

* * *

Feysbukda tez-tez dini, siyasi və elmi mübahisələrə də rast gəlinir. Bu məsələlərə daha dərindən nəzər salarkən görmək çətin deyil ki, mahiyyətcə, burada hadisələrə obyektiv, elmi baxışla müxtəlif ideoloji baxışlar arasındaki ziddiyyətlərdən söhbət gedir. Elm hər bir məsələyə obyektiv baxış tələb edir, ideologiyalar isə (dini, siyasi, millətçi və s.) hadisə və məsələlərə yalnız öz subyektiv mənafeyi baxımından yanaşırlar. Ancaq ideologiyalar da öz iddialarına elmi don geyindirməyə çalışırlar. Belə halda isə həqiqi elmlə onların düzəltdikləri yalançı elm arasındakı ziddiyyətlərdən danışmaq lazım gəlir. Ədəbi sahədə oxşar qarşıdurma vaxtı ilə vətənpərvər mollanəsrəddinçilərlə millətçi füyuzatçılar arasında olmuşdur. Vətənpərvərliklə millətçilik arasında isə ciddi fərqlər vardır (vətənpərvərlik təbii hissdir və hətta heyvanlarda da vardır). Vətənpərvər insanlar öz xalqı yolunda hər cür fədakarlığa getməyə hazırdırlar, ancaq onlar başqa xalqlara da hörmətlə yanaşırlar. Vətənpərvərlər yalnız onların xalqına qarşı çıxanlarla barışmaz olurlar. Millətçilər isə öz xalqlarını digərlərindən üstün tutmaqla, özlərinə yalançı tarix düzəltməklə və s. şovinist hərəkətləri ilə digər xalqları aşağılayırlar. Təsir isə əks-təsir doğurduğuna görə millətçilər digər xalqları öz xalqlarına qarşı qoyurlar. Buna görə də ideologiyalar son nəticədə xalqın zərərinə tamam olur. Elm isə həyatın, cəmiyyətin əsas hərəkətverici qüvvəsidir. Ona görə də elm və ideologiya mahiyyətcə bir-birinə zidd anlayışlardır. Elm faktlara, təcrübəyə, məntiqə əsaslanaraq həqiqətləri üzə çıxarmağa çalışır. İdeologiyaların əsasında isə subyektiv ideyalar, hissiyyat və fanatik inam dayanır. Elm öz səhvlərini etiraf edir və düzəldir. İdeologiyalar isə heç vaxt öz səhvlərini etiraf etmirlər və "kor tutduğunu buraxmaz" prinsipi ilə hərəkət edirlər. Çünki bilirlər ki, bir etirafla bütün saxta sistem çökə bilər. Elm həm özü daima inkişaf edir, həm də bəşəriyyətin inkişafına xidmət edir. İdeologiyaların xisləti isə dağıdıcıdır, çünki hər bir ideologiya digər insan qruplarına qarşı yönəlir və onların da əks reaksiyasına məruz qalır. Beləliklə də, ideologiyalar cəmiyyətdə çaxnaşmalara, inqilablara, xalqlar arasında müharibələrə səbəb olur. Ona görə də həqiqi elmlə məşğul olmaq istəyən hər bir adam ideologiyaların təsiri altina düşməməli, "pisi pis, əyrini əyri, düzü həmvar yazmalıdır".

***2021***

***Kamil ALLAHYAROV, professor***